

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 228 (21.638)

1 dekabr 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Noyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva XXII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisi – "Bakutel-2016" ilə tanış olublar.

Rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə dövlətimizin başçısına və xanımına sərgi barədə məlumat verib.

Bildirilib ki, sərgidə dünyanın 18 ölkəsindən 200 şirkət iştirak edir. Builki sərgidə 9 ölkə – Avstriya, Belarus, İran, İtaliya, Fransa, Niderland, Sloveniya, Türkiyə və Xorvatiya milli stendlərdə öz ölkələrinin aparıcı şirkətləri ilə yanaşı, həm Azərbaycan, həm də bütün Xəzəryanı region üçün innovativ layihələr, eləcə də İKT sahəsində məhsul və xidmətlərini təqdim edir. Sərgidə bu il debütantların sayı iştirakçıların ümumi sayının 30 faizini təşkil edir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da XXII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisi – "Bakutel-2016" ilə tanışlıq zamanı "Euronews" və "Rossiya-24" telekanallarının suallarını cavablandırıb.

## Hüquqşünaslıq ixtisasında təhsil alan tələbələrlə görüş keçirilib

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına əsasən, Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin Hüquqşünaslıq ixtisası Daxili İşlər Nazirliyinin hamiliyinə verilib. Həmin ixtisasda təhsil alan IV kurs tələbələri Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsində, İstintaq və Təhqiqat, Pasport, Qeydiyyat və Miqrasiya, Mühafizə şöbələrində və Kriminalistik Tədqiqatlar Bölməsində adıçəkilən qurumların iş prosesi ilə tanış olublar.*




Onlara yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi, cinayət işlərinin istintaqı, hadisə yerinin müayinəsi, itkin düşmüş şəxslərin və naməlum meyitlərin şəxsiyyətinin müəyyən olunmasında DNT tədqiqatının imkanlarından istifadə qaydaları, kriminalistik vasitələrdən istifadə, biometrik pasportların verilməsi və mülkiyyətin mühafizəsi qaydaları izah edilib.

Tələbələrlə görüşdə Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Əhməd Əhmədov bildirib ki, son illərdə muxtar respublikada qanunçuluğun, ictimai asayişin qorunması üçün müxtəlif tədbirlər həyata keçirilib. Bunun nəticəsidir ki, regionda cinayətlərin sayı kəskin şəkildə azalıb. Naxçıvan şəhərində, eləcə də muxtar respublika ərazisində quraşdırılmış müşahidə kameraları vasitəsilə həm yol-nəqliyyat hadisələrini, həm də baş verən istənilən cinayət hadisəsini qısa müddətdə aşkarlamaq mümkündür.

Nazirliyin Təşkilat İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Əli Tağıyev tələbələrə idarənin funksiyaları haqqında məlumat verərək bildirib ki, qurumun funksiyalarına informasiya-analitik işin aparılması, kompleks qərarların və cari planlaşma layihələrinin perspektivliyinin işlənib hazırlanması, əməliyyat şəraitinə nəzarət edilməsi, əməliyyat-xidməti qərarların hazırlanması və sair daxildir. Əli Tağıyev son illərdə muxtar respublikada cinayətkarlığın azaldılması üçün aparılan profilaktik tədbirlərdən də bəhs edib.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Əhməd Əhmədov tələbələrə nazirlikdə yerləşən "Təhlükəsiz şəhər" Avtomatlaşdırılmış İdarəetmə Sistemi otağında kameraların işləmə rejimi haqqında əyani surətdə məlumat verib və onları maraqlandıran sualları cavablandırıb.

## Batabat Astrofizika Rəsədxanasında Günəş sistemi tədqiq ediləcək



Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin tərkibində fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrindən biri də Batabat Astrofizika Rəsədxanasıdır. Son illərdə rəsədxananın maddi-texniki bazasının yenilənməsi, lazımi iş şəraitinin yaradılması burada müxtəlif elmi tədqiqatların həyata keçirilməsinə imkan verib.

Rəsədxananın direktoru Qulu Həziyevdən aldığımız məlumata görə, indiyədək Batabat Astrofizika Rəsədxanasında, əsasən, Günəş sisteminin kiçik cisimləri – kometalar və asteroidlər öyrənilirdisə, artıq burada parlaq ulduzların da tədqiq olunması nəzərdə tutulub. Çünki rəsədxanada ulduzların da müşahidəsi və tədqiqi üçün lazım olan avadanlıqlar quraşdırılıb. Elmi-tədqiqat müəssisəsində Günəşin də müşahidə və tədqiq olunması nəzərdə tutulub.

Qeyd edək ki, Batabat Astrofizika Rəsədxanasında Almaniya istehsalı olan "SEYYS-600" tipli teleskop quraşdırılıb. Bu rəsədxana Azərbaycanda Şamaxı Astrofizika Rəsədxanasından sonra yaradılmış ikinci rəsədxanadır. Elmi-tədqiqat müəssisəsinin əsas fəaliyyəti səma cisimlərinin dinamikası və fizikasının öyrənilməsini əhatə edir.

**Xəbərlər şöbəsi**

## "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinə yeni eksponatlar təqdim olunub

*Maddi-mədəni irsimizin qorunmasında və təbliğində muxtar respublika sakinləri də səylərini əsirgəmir, bu istiqamətdə həyata keçirilən tədbirlərdə fəallıq göstərir, əldə olunan maddi-mədəniyyət nümunələrini muzeylərimizə hədiyyə edirlər.*



Noyabrın 30-da Nehrəm kənd sakinləri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev tərəfindən qədim mədəniyyətimizi əks etdirən dekorativ-tətbiqi sənət nümunələri – 1 ədəd xalça və 8 misgərlik nümunəsi, kənd ziyalılarından Həsən Həsənov və Mehralı Cəfərov tərəfindən isə 1 ədəd qədim xalça "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə təqdim edilib.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirib ki, muxtar respublikada bütün sahələr, o cümlədən mədəniyyət sahəsi də inkişaf etdirilir. Qeyd edilib ki, bu gün tariximizin, mədəniyyətimizin, adət-ənənələrimizin qorunub gələcək nəsillərə çatdırılması daim diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikasında 29 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir. Həmin mədəniyyət müəssisələrində xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 112 mindən çox maddi-mədəniyyət nümunələri qorunub saxlanılır. Müstəqillik illərinə qədər muxtar respublika ərazisində 13 muzey fəaliyyət göstərirdisə, ötən dövrdə Naxçıvanın tarixini və görkəmli şəxsiyyətlərinin yaradıcılığını əks etdirən 16 muzey yaradılıb. Artıq 5 ilə yaxındır ki, Naxçıvan Dövlət Universitetində muzey işi sahəsində ixtisaslı kadrlar yetişdirilir. Bu gün muzeylərimizi ziyarət edənlərin sayı əhəmiyyətli dərəcədə artıb və muzey işçilərinin öhdəsinə daha böyük vəzifələr qoyulub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına əsasən, muxtar respublikanın nazirlik, komitə və təşkilatlarının kollektivləri mütəşəkkil şəkildə muzeylərimizi ziyarət edirlər. Bundan başqa, muxtar respublikada təhsil alan tələbələrin, gənclərin, həmçinin şagirdlərin, taksi sürücülərinin də muzeylərə gedişi təmin olunub. Təkcə bu ilin 10 ayı ərzində muxtar respublikanın muzeylərini 273 minə yaxın insan ziyarət edib ki, bunların arasında həm yerli sakinlər, həm Azərbaycanın digər regionlarından muxtar respublikamıza gələn qonaqlar, həmçinin xarici vətəndaşlar olublar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən, bu gün muxtar respublikamızda olan muzeylər ilə orta məktəblər arasında distant dərslər təşkil olunur, yetişməkdə olan gənc nəsil üçün açıq dərslər təşkil edilir.



Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən mütəşəkkil şəkildə muzeylərimiz üçün maddi-mədəniyyət nümunələrinin toplanması işi də diqqətdə saxlanılır. Bu işdə muxtar respublika sakinləri öz köməkliklərini göstərirlər. Təkcə 2016-cı il ərzində muzeylərə 1500-ə yaxın yeni eksponat daxil olub. Bu tədbirlərin davamı olaraq bu gün "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinə yeni eksponatlar təqdim edilir.

Natəvan Qədimova maddi-mədəniyyət nümunələrini muzeyə hədiyyə etdiklərinə görə Akif Hacıyevə, Həsən Həsənova və Mehralı Cəfərova təşəkkür edib.

Akif Hacıyev çıxış edərək deyib: Bu gün muxtar respublikada maddi-mədəni irsimizin qorunub yaşadılması sahəsində ardıcıl tədbirlər görülür. Muzeylərin eksponatlarla zənginləşdirilməsi, yeni muzeylərin yaradılması sahəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən həyata keçirilən tədbirlər minnətdarlıqla qarşılanır. Hər kəs mədəni irsimizin qorunub yaşadılması sahəsində həyata keçirilən tədbirlərə öz töhfəsini verməyə çalışır. Sakinlər tərəfindən qədim məişət əşyalarının, xalçaların muzeylərə təqdim edilməsi də bu mənada mühüm əhəmiyyətə malikdir. Bu eksponatların muzeylərimizə verilməsi zəngin mədəni irsimizin qorunub yaşadılmasına və gələcək nəsillərə çatdırılmasına xidmət edir. Muxtar respublikada maddi-mədəniyyət nümunələrinin toplanmasında bundan sonra da fəal iştirak edəcəyik.

Sonda tədbir iştirakçıları muzeylə tanış olublar.

**"Şərq qapısı"**

# Abad yurd yolundan bəlli olar

## *Naxçıvanın bütün yaşayış məntəqələri kimi yolları da müasirdir*

***N**axçıvan ulu əcdadlarımızın daş yaddaşı, Gəmiqaya qədimliyinin, Möminə xatın kamilliyinin, Əlincə mətinliyinin, Gülüstan hikmətinin, Qızlar bulağı kövrəkliyinin vətənidir. Bu yurdda Əcəmi daşı sözləşdirib, Mirzə Cəlil, Cavid sözü daşlaşdırıb. Bu diyarda daş sözü bağrına basıb, söz də daşı. Uca daşla uca söz Naxçıvanın möhtəşəmliyini yaradıb. Bu yurd yaranışından ulular diyarı, dahilər vətəni olub. Bu elin insanları qaya dözümündən, daş mətanətindən, torpaq həlimliyindən yoğrulub. Coşqunluğu Araz çayından, kövrəkliyi dağ bulaqlarından alıb. Bu həqiqət qədim səyyahların salnamələrində yazılıb, dünyaya çatdırılıb. Çünki qədim Naxçıvan karvan yolları üzərində qərar tutub. Və gerçəklikdir ki, Naxçıvanın dünyaya tanınmasında onun bu coğrafi mövqedə yerləşməsi mühüm rol oynayıb.*




Təsadüfi deyil ki, yolları mədəniyyətin, intibahın başlanğıcı hesab edirlər. Bu da bir aforizmə çevrilib ki, mədəniyyət yoldan başlayır. Yol iqtisadiyyatın inkişafının təməlidir. Bu aspektdən yanaşdıqda bu gün Naxçıvan diyarında yol quruculuğuna göstərilən qayğı bilavasitə insanların dolanışığına, rifahının, həyat səviyyəsinin yüksəlməsinə yönəldilib. Başqa sözlə desək, Naxçıvanda yol təsərrüfatının inkişafı onun hərtərəfli tərəqqisinə xidmət edir. Bu gün Naxçıvana ayaq basan hər kəs də bu həqiqəti təsdiq edir ki, yol tikintisi quruculuq tədbirlərinin tərkib hissəsidir.

...Bu gün qədim diyarın döyünən ürəyi olan Naxçıvan şəhərindən bölgələrə şaxələnən yollar, obrazlı desək, Naxçıvanda aparılan möhtəşəm quruculuğun qan damarlarına bənzəyir. Vaxtilə ulu öndərimiz Heydər Əliyevin böyük uzaqgörənliklə söylədiyi və tarixin bütün dövrlərində öz aktuallığını saxlayacaq: ***"Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir"*** müdrik kəlamının işığında muxtar respublika ərazisinə baxanda qəlbən qürur duymamaq olmur. Çünki yol çəkmək çətin və ağır işdir. Bu prosesdə dağları, təpələri yarmaq, dərələrdən körpülər salmaq, minbir əziyyətə qatlaşmaq gərəkdir. Yol çəkənin yetərincə gücü və imkanı, ölçü-biçi və hesablamaq bacarığı, vaxtında və dərhal ən düzgün, ən optimal qərar qəbul etmək qabiliyyəti olmalıdır. Əslində, hər bir yol özündə saysız-hesabsız, hətta bəzən unudulmuş cığırları belə, birləşdirir. Həm də ata-babalardan savab bir əməl sayılıb yol çəkmək. Və elə bu amil də yola qayğı göstərənlərin Vətənə bağlılığının bir göstəricisidir.

Bu da bir həqiqətdir ki, ölkəmiz iqtisadi cəhətdən inkişaf edib gücləndikcə Naxçıvanda bütün sahələrdə olduğu kimi, yol infrastruktur layihələri də uğurla həyata keçirilir, dünya standartlarına uyğun yollar salınır, körpülər inşa edilir. Bu gün uzunluğu 82 kilometr olan dördzolaqlı Naxçıvan-Sədərək magistralından Şərur, Kəngərli rayonlarının əhalisi rahatlıqla istifadə etməklə yanaşı, bu yol qədim diyarımızla qardaş Türkiyəni birləşdirən yol olduğundan Naxçıvan üçün böyük əhəmiyyət kəsb edir.

Yol-nəqliyyat təsərrüfatının yenilənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi daşıyan kompleks işlərin görülməsinə istiqamətlənən və uğurla başa çatan "Azərbaycan Respublikasında avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair (2006-2015-ci illər) Dövlət Proqramı"na uyğun olaraq Təzəkənd-Çalxanqala-Qıvraq, Çeşməbasar-Boyəhməd avtomobil yolları yenidən qurulub. Məhz bu proqramın icrası nəticəsində Naxçıvan ərazisindən keçməklə Qərb və Şərq sivilizasiyalarını birləşdirən Böyük İpək Yolunun bərpası istiqamətində 8 kilometrdən çox uzunluğu olan Naxçıvan dairəvi avtomobil yolunun, 32 kilometr uzunluğundakı Naxçıvan-Culfa magistral avtomobil yolunun inşası qısa müddətdə və keyfiyyətlə başa çatdırılıb. Naxçıvan-Culfa yolunun açılış mərasimində ölkə rəhbərinin ***"Naxçıvan tranzit mərkəzə çevrilməkdədir"*** deməsi Naxçıvanın yaxın gələcəkdə dünya ilə əlaqəsinin genişlənməsi və daha da çiçəklənməsindən xəbər verir.

Muxtar respublikada aparılan yol quruculuğundan Naxçıvan-Şahbuz-Batabat avtomobil yoluna da pay düşüb. 2014-cü ildə yenidən qurulan bu yolun əhəmiyyəti həm də Naxçıvanda turizmin inkişafına dəstək veriləcək bir amil kimi qiymətləndirilməlidir.

Diyarımızda daha bir yol var. Naxçıvan Beynəlxalq Hava Limanına uzanan yol. Bu yolun dəyəri həm də ondadır ki, Naxçıvana gələn qonaqların muxtar respublikamızda yol quruculuğuna göstərilən qayğı barədə ilk təəssüratları məhz bu abad yoldan formalaşır.

...Salınan böyük magistral yolların ən ucqar yaşayış məntəqələrinə belə, şaxələnməsi hər kəs tərəfindən o mənada təqdir edilir ki, o yerlərə bu vaxtlara qədər uzanan yollara yol deyil, cığır, iz demək olardı. Bu gün isə dağ kəndlərinə çəkilən yollar belə, müasir standartlara cavab verir, geniş magistrallardan fərqlənmir. Oxucu düşünə bilər ki, məgər indiyəcən bu kəndlərə yol yox idimi? Əlbəttə, var idi. Amma bu gün dağların sinəsi ilə qıvrılan Cəhri-Buzqov, Çeşməbasar-Boyəhməd, Aşağı və Yuxarı Qışlaq yollarına, Qarabağlar, Şahtaxtı, Yaycı, Gülüstan və digər yaşayış məntəqələrimizə çəkilən geniş, asfalt yollara baxanda istər-istəməz müqayisə edirsən. Ötən əsrin son iki onilliyində görülən işlərdən fəxarət hissləri duyursan. Çünki daha qar-yağış yağanda kəndlərə getmək müşkülə çevrilmir, insanlar əzab-əziyyətə düçar olmurlar. Artıq uzun illərdən bəri kənd sakinlərini narahat edən problemlər öz həllini tapıb. İndi insanlar dağ kəndlərinə, sərhəd bölgələrimizə ilin bütün fəsillərində rahat gedib-gəlirlər.

Mən dağ kəndində böyüdüyümdən bu mövzunu qələmə alarkən yaddaşıma uşaqlıqdan yazılan bir hadisə düşdü. Yaxşı yadımdadır. Qonşumuz xəstələnmişdi. Onun xəstələnməyindən gec xəbər tutmuşduq. Rayon mərkəzinə zəng vurmaq istədilər, telefon kəsilmişdi. Kənddə bir maşın vardı. Onunla xəstəni xəstəxanaya apardılar. Bərk də yağış yağırdı. Maşın gedib yolda batmışdı. Naəlac qalıb xəstəni qucaqlarında rayon mərkəzinə aparmışdılar. Amma səhərçağı xəstəni həkimə çatdıranda artıq gec olmuşdu…

…Əvvəllər ucqar dağ kəndlərində yaşayanlar yollara görə maşın ala bilmirdilər, bu gün isə dünyanın ən son model avtomaşınları kənd yollarında rahatca idarə olunur. Yolların abadlığı yay aylarında kənd yerlərinə gedən qonaq-qaranın da sayını artırıb. Kim istəməz ki, xüsusən də yay aylarında bir tərəfi dağa söykənən, bir tərəfindən çay axan təbiətin dilbər guşələrində, ağacların kölgəsində sərinləməsin, kim istəməz ki, bulaqların dişgöynədən suyundan içib, dağlarından kəklikotu, nanə dərib, göz yaşı kimi şəffaf suyun altından daşları sayılan çayın zümzüməsinə qulaq asmasın? Kəndlərimizdəki sirli-soraqlı yerlərlə yaxından tanış olmasın? Bu imkanı qazananların əminəm ki, ilk növbədə, yollarımızın abadlığından qəlbləri razılıq hissləri ilə döyünür.

Bu da bir həqiqətdir ki, müasir, dünya standartlarına cavab verən yolların salınması həm də siyasi əhəmiyyət daşıyır. Yol-nəqliyyat infrastrukturu dövlətin iqtisadi inkişafını və maliyyə imkanlarını özündə əks etdirdiyi kimi, insanların həyat səviyyəsini də səciyyələndirən əsas göstəricilərdəndir. Yol tikintisi layihələrinin uğurla icra olunmasının ölkənin iqtisadi-sosial həyatında önəmli rol oynadığını vurğulayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Ölkəmizin hərtərəfli inkişafı üçün yol infrastrukturu da böyük rol oynayır. Yolların tikintisi məsələləri daim diqqət mərkəzində olmuşdur. İlk növbədə magistral yollardan, ondan sonra şəhərlərarası, daha sonra kəndlərarası, kənddaxili yollardan başladıq. Bu gün bu proses geniş vüsət almışdır. Hər bir rayonda yol layihələri icra edilir... Həm dövlət büdcəsindən, həm Prezidentin ehtiyat fondundan kənd yollarının tikintisinə böyük vəsait ayrılır, ayrılacaqdır. Bizim bütün kəndlərimizdə asfalt yollar, yaxşı yollar olmalıdır və olacaqdır".***

Elə bunun nəticəsidir ki, Azərbaycan Respublikasının Prezidenti 2011-ci il sentyabrın 2-də "Naxçıvan Muxtar Respublikasının Culfa və Kəngərli rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında", 5 mart 2013-cü il tarixdə "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında", 2014-cü il avqustun 27-də "Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında", cari ilin 20 may tarixində "Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamlar imzalayıb. Bu tarixi sənədlərin icrası çərçivəsində Culfa rayonunun Əlincəçay vadisi boyunca yerləşən və 25 min nəfər sakinin yaşadığı 20 kəndin, Kəngərli rayonunda 12 min insanın yaşadığı 5 kəndin, Hacıvar-Vayxır-Sirab istiqamətində 18 min sakinin yaşadığı 13 kəndin və daha 31 min nəfərdən çox insanın yaşadığı 7 yaşayış məntəqəsini əhatə edən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunda yenidənqurma işləri görülüb ki, bu da muxtar respublikamızda yol təsərrüfatına göstərilən qayğının bariz ifadəsidir. Və yol quruculuğu istiqamətində aparılan tədbirlər indi rayonların kəndlərinə qəsəbə, qəsəbələrə isə şəhər görkəmi bəxş edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Yol tikintisi Azərbaycan dövlətinin iqtisadi qüdrətinin və vətəndaşlarına göstərdiyi qayğının təzahürüdür".*** Elə son illərdə muxtar respublika ərazisində 3 min kilometrdən artıq yol çəkilməsi də bunun göstəricisidir.

…Bəli, bu gün diyarımızın müxtəlif guşələrini bir-birinə qırılmaz tellərlə bağlayan və bölgələrimizi firavan həyata qovuşduran yollara baxanda düşünürsən ki, bu yollardan istifadə edən sakinlər addımlarını daha qətiyyətlə atacaqlar. Dövlətçiliyin möhkəmlənməsi, doğma yurdun qüdrətlənməsi, çiçəklənməsi üçün zəhmətkeş insanlar bu yolla gələcəyə doğru gedirlər.

Son olaraq qeyd edək ki, bütün canlıların yolu-izi olur. Salınan hər ləpirin izə çevrilməsinə də zaman gərəkdir. Əslində, bizi dünəndən bu günə gətirən, sabaha aparan da yollardır. Onların bəzisi təbiətin qoynundan salınıb, bəzisi isə şəhərdən kəndə uzanıb...

*...Bu yazıda yollardan danışdım. O yollar ki, təkcə coğrafi məkanları deyil, qəlbləri, ürəkləri birləşdirir. Doğma diyarın iqtisadiyyatının, mədəniyyətinin inkişafı ilə yanaşı, əhalinin güzəranının yaxşılaşmasına xidmət edir. Sabaha, daha firavan həyata aparan YOLUMUZ uğurlu olsun!..*

**Hafizə ƏLİYEVA**

*Yazı "Naxçıvan: dünən və bu gün" yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür*

---

***Nəqliyyat Nazirliyindən aldığımız məlumata görə, soyuq qış mövsümündə də hava şəraitindən asılı olmayaraq, avtomobil yollarında hərəkətin intensivliyinin təmin olunması, sərnişinlərin vaxtında və təhlükəsiz şəraitdə mənzil başına çatdırılması üçün kompleks tədbirlər həyata keçirilib. Muxtar respublika ərazisində fəaliyyət göstərən bütün taksilər mövsümə hazır olmaları üçün texniki müayinədən keçirilib, texniki müayinə zamanı ortaya çıxan nasazlıqlar aradan qaldırılıb.***

## İstənilən hava şəraitində yollarda avtomobillərin intensiv hərəkəti təmin ediləcək



Naxçıvan şəhərindən rayon mərkəzlərinə və ayrı-ayrı yaşayış məntəqələrinə işləyən avtobus və mikroavtobuslar, habelə Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin balansında olan müxtəlif markalı avtobuslar texniki müayinə olunub, qışa tam hazır vəziyyətə gətirilib.

Qış mövsümünü uğurla başa çatdırmaq üçün nazirliyin daimi komissiyalarının fəaliyyəti daha da artırılıb, "Payız-qış mövsümünə hazırlıq komissiyası" və "Texniki müayinə komissiyası"nın işləri əlaqələndirilib, bütün sahələrdə nəzarət gücləndirilib.

Muxtar respublika avtovağzallarının payız-qış mövsümünə hazırlığı da diqqət mərkəzində saxlanılıb, şəhərlərarası və rayonlararası marşrut avtobuslarının qrafiki bir daha təkmilləşdirilib. Avtovağzallardakı istilik sistemləri yoxlanılaraq işlək vəziyyətə gətirilib, qış mövsümündə fasiləsiz fəaliyyət göstərməsinə əlverişli şərait yaradılıb.

Nəqliyyat Nazirliyinin müqavilələri ilə fəaliyyət göstərən avtonəqliyyat vasitələrinin texniki müayinəsi keçirilib, bu avtomaşınların qış aylarında da saz vəziyyətdə saxlanılması üçün sahibkarlarla maarifləndirmə işi aparılıb. Bu məqsədlə ucqar dağ və sərhəd kəndlərinə işləyən marşrut avtobuslarının fəaliyyətinə diqqət daha da artırılıb, nəqliyyat vasitələrinin sahibkarları ilə əlaqə saxlanılıb, mövcud olan çatışmazlıqların aradan qaldırılması üçün köməkliklər göstərilib.

Qış mövsümündə sərnişinlərin rahatlığını təmin etmək üçün Naxçıvan-Bakı marşrutunda işləyən avtobusların fəaliyyətinə diqqət artırılıb. Habelə müqavilə əsasında muxtar respublikadan bir sıra marşrutlar üzrə beynəlxalq sərnişindaşımanı həyata keçirən şirkətlərlə ("İğdırlı turizm", "Metro", "Didari Seyri Giti", "Tond Poyan" və sair) əlaqələr daha da genişləndirilib, sərnişinlərin bu marşrutlardan rahatlıqla istifadə etmələri üçün lazımi tədbirlər həyata keçirilib, bu marşrutlarda daha müasir avtobusların fəaliyyəti təmin edilib.

Soyuq qış mövsümündə avtomobil yollarının qardan və buzdan təmizlənməsi üçün 12 ədəd avtoqreyder, 29 ədəd özüyükünüboşaldan maşın, 8 ədəd buldozer, 1 ədəd qumsəpən maşın, 3 ədəd ekskavator, 5 ədəd avtoyükləyici və 1 ədəd qartəmizləyən maşın hazır vəziyyətə gətirilib. Asfalt yollarda işləyəcək avtoqreyderlər rezin bıçaqlarla təmin edilib. Ucqar dağ və sərhəd kəndlərinə gedən avtomobil yollarının qardan, buzdan təmizlənməsi üçün maşın-mexanizmlər ayrılıb. Həmçinin avtomobil yollarının buzdan təmizlənməsində mühüm rol oynayan Şorsu qumunun tədarükü başa çatdırılıb, 2 min kubmetr qum tədarük edilib.

Qış mövsümündə avtobuslarda baş verə biləcək nasazlıqların vaxtında aradan qaldırılması üçün Nəqliyyat İdarəsində mexanik və çilingərlərdən ibarət təmir briqadası fəaliyyətə başlayıb, təmir sexlərində hərtərəfli şərait yaradılıb.

**Kərəm HƏSƏNOV**

***Bu gün müasir dünyada baş verənlər sərbəst düşünmək və fəaliyyət göstərmək qabiliyyətinə yiyələnmiş, müstəqil həyata hazır olan insanların yetişdirilməsi zərurətini meydana çıxarır. Çünki bir çox taleyüklü vəzifələr yaxın gələcəkdə bugünkü gəncliyin öhdəsinə düşəcəkdir. Elə bu səbəbdəndir ki, muxtar respublikamızın ali, orta ixtisas və orta təhsil müəssisələrində olduğu kimi, məktəbəqədər təhsil ocaqlarında da tərbiyə və təlim işinin düşünülmüş sistemi yaradılmaqdadır.***

## Beşyaşlıların məktəb təliminə hazırlanması təhsil sahəsində əldə edilən inkişafın göstəricisidir





Məktəbəqədər təhsil ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və zehni inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir. Məktəbəqədər təhsil müəssisələri təhsil sisteminin ilk pilləsi olmaqla uşaqların tərbiyəsi və təlimi vəzifəsini yerinə yetirir. Bu müəssisələrin son məqsədi uşaqları məktəb təliminə hazırlamaqdır.

Təhsilin keyfiyyətli, səmərəli və davamlı olması üçün bir çox şərtlər mövcuddur. Buraya cəmiyyətin tələbatına görə dövlət standartları əsasında optimal müəyyənləşdirilmiş məzmun, çevik qiymətləndirmə modelləri, peşəkar pedaqoji heyət, əlverişli maddi-texniki baza və sair daxildir. Lakin bütün bu amillər olduqda belə, təhsil pillələri və səviyyələri arasında varislik təmin edilməzsə, keyfiyyət və səmərəliliyin reallığa çevrilməsində boşluqlar yaranır. Varislik, ilk növbədə, inkişafa xidmət etməli, hər hansı bir nəticə özündən əvvəl gələnin mahiyyətcə zənginləşməsinə və əhatə dairəsinin genişlənməsinə yönəlmelidir. Belə ki, bir pillədən digər pilləyə, bir səviyyədən digər səviyyəyə keçid zamanı əvvəlki pillə və səviyyələrdə qazanılmış bilik, bacarıq və nəticələrin nəzərə alınmaması varisliyin pozulmasına gətirib çıxarır. Bu baxımdan məktəbəqədər müəssisədən məktəbə keçid prosesində mövcud boşluqların, qarşıya çıxan çətinliklərin aradan qaldırılması hər zaman həllivacib məsələlərdən olub.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən məktəbəqədər təhsil təhsilin ilkin pilləsidir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında uşaqların məktəbəhazırlığının təşkili məsələləri haqqında" Qərarından əvvəl uşaqların xeyli hissəsi məktəbəqədər təhsil mərhələsini, eləcə də məktəbəhazırlıq dövrünü keçmədən birbaşa məktəbə qəbul edilirdilər. Bu, uşağın məktəbə hazırlanma sistemində varisliyin pozulmasına gətirib çıxarırdı. Ancaq adıçəkilən qərardan sonra cari ilin oktyabr ayının 3-dən başlayaraq muxtar respublikanın 121 ümumtəhsil məktəbində məktəbəhazırlıq qrupları fəaliyyətə başlayıb. Bununla da, ibtidai təhsil məktəbəqədər təhsil və məktəbəhazırlıq təliminin davamı kimi vahid sistemdə birləşdirilib, uşağın psixoloji və mənəvi cəhətdən məktəb təliminə hazırlığının əsası qoyulub. Məktəblərdə təşkil edilən qruplarda beşyaşlı uşaqların psixoloji, fiziki inkişafına xüsusi diqqət yetirilməsinə başlanılıb. Bundan başqa, beşyaşlıların məktəb təliminə hazırlığı sahəsində aparılan işin səmərəliliyinin təmin edilməsi üçün müasir tələblərə uyğun metodik vəsaitlər və didaktik materialların hazırlanması, məktəbəqədər müəssisələrin və məktəblərin müasir avadanlıqlarla – kompüter, proyektor, videokamera, disklər, kasetlər və sairlə təchiz olunması təmin edilib. Beşyaşlıların təlim-tərbiyəsinin təsdiq edilmiş proqram üzrə təşkili sahəsində ciddi addımlar atılır. Təlim-tərbiyə zamanı uşaqların yaş və fizioloji imkanları, idraki, mənəvi və fiziki inkişafı nəzərə alınır.

Hazırda muxtar respublikanın şəhər və rayonlarında 2800-dən çox beşyaşlı uşaq ödənişsiz əsaslarla məktəbəhazırlıq qruplarına cəlb edilib. Ötən günlərdə məktəbəhazırlıq qruplarında təlimin təşkili ilə tanış olmaq üçün Naxçıvan şəhərinin bir neçə tam orta məktəbində olduq, dərslərin gedişi ilə maraqlandıq. İlk baş çəkdiyimiz ünvan Naxçıvan şəhər 2 nömrəli tam orta məktəb oldu. Bu məktəbdə hər cür şəraitlə təmin edilmiş 2 qrupda dərslər aparılırdı. Məktəbin direktoru Sevil Salayeva dedi ki, hər həftənin 4 günü ərzində fəaliyyət göstərən məktəbəhazırlıq qruplarının əsas məqsədi uşaqların tədrisə hazırlıqlı başlaması, dərs prosesinə öncədən alışması, onlarda müəyyən bilik, bacarıq və vərdişlərin formalaşdırılmasıdır. Bütün ümumtəhsil məktəblərində olduğu kimi, Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbdə yaradılmış məktəbəhazırlıq qruplarına da 5 yaşı bu il tamam olmuş uşaqlar qəbul edilib. Həmin qruplarda "Ətraf aləmlə tanışlıq", "Savad təliminə hazırlıq və nitq inkişafı", "Bədii təfəkkürün inkişafı", "Məntiqi və riyazi təfəkkürün inkişafı", "Təsviri fəaliyyət", "Musiqi" və "Fiziki mədəniyyət" dərs məşğələləri tədris edilir. Gün ərzində 3 məşğələ tədris olunur. Məşğələnin müddəti 30, məşğələlərarası fasilə 10 dəqiqədir. Bu qruplarda təhsil alan uşaqlar üçün ev tapşırıqları nəzərdə tutulmayıb. Məktəbəhazırlıq qruplarında məşğələləri aparmaq məqsədilə təcrübəli ibtidai sinif müəllimləri seçilib və onlar kurslara cəlb olunublar.

Məşğələni aparan ibtidai sinif müəllimi Aysel Cabbarova dedi ki, I sinfə gələnlərin səviyyəsinin müxtəlif olması müəllimin işini xeyli çətinləşdirir, ümumi işi ləngidir. Hazırlıqsız uşaqlarla iş çox vaxt aparır, digər uşaqlar dərsdə baxımsız qalırlar və təlim, məktəb onlar üçün maraqsız olur. Pedaqoji maarifə cəlb edilməmiş, pedaqoji-psixoloji biliklərdən xəbəri olmayan valideynlərin öhdəsinə buraxılmış uşaqlar, şübhəsiz, məktəbə lazımınca hazır gələ bilməzlər. Ailələrdə, həmçinin bəzi uşaq bağçalarında ara-sıra, təsadüfən təlimə hazırlıq xarakterli məşğələlərə cəlb edilən uşaqlar, demək olar ki, bütün parametrlər üzrə hazırlığın tələblərinə cavab verə bilmirlər. Bu baxımdan beşyaşlı uşaqların məktəbəhazırlıq qruplarına cəlb edilməsi təkcə valideynlərin deyil, ibtidai sinif müəllimlərinin də işini xeyli asanlaşdırır.

Naxçıvan şəhər 10 nömrəli tam orta məktəbə gəlişimiz məktəbəhazırlıq qrupunun "Ətraf aləmlə tanışlıq" məşğələsinə təsadüf etdi. Müəllim Könül Hüseynova elektron lövhə və digər müasir tədris vəsaitlərilə məşğələni aparır, uşaqların suallarına böyük həvəslə cavab verirdi. Beşyaşlı uşaqların məşğələsi, həqiqətən də, çox maraqlıdır. Bu qruplara cəlb olunan uşaqlar bəzən suallara tez cavab vermək üçün lövhənin qarşısına qədər gəlir, bəzən sualı yerlərindən cavablandırır, bəzən küsür, bəzən də gülürlər. Məşğələdə onlar üçün tam sərbəstlik təmin edilmişdi.

Adıçəkilən məktəbəhazırlıq qrupunda müəllimin suallarını tez və dəqiq cavablandırması ilə diqqətimizi çəkən Fatimə Məmmədovadan "Bura xoşuna gəlirmi?" deyə soruşanda dedi ki, bura çox yaxşıdır, çox şey öyrənirik, müəlliməmiz də bizi darıxmağa qoymur.

Naxçıvan şəhərindəki 7 nömrəli tam orta məktəbdə də məşğələlərin öz axarı ilə davam etdiyinin şahidi olduq. Övladı ilə bərabər məşğələdə iştirak edən Dilarə Rəsulova bir ana kimi övladının bu qədər qısa müddətdə çox şey haqqında məlumatlı olmasından razılığını bildirdi. Dedi ki, məktəblərdə tamamilə dövlət vəsaiti hesabına belə qrupların yaradılması bir valideyn kimi onu çox sevindirib. Tam əmindir ki, övladı məktəbə gedəndə onun hazırlıq baxımından heç bir çətinliyi olmayacaq. Əvvəllər düşünürdü ki, 5 yaşında övladını hansısa bir repetitor yanına göndərsin. Təbii ki, bunun ailə büdcəsinə də təsiri olacaqdı. Ancaq dövlətimizin uşaqlara qayğısı sayəsində onun və onun kimi yüzlərlə valideynin bu çətinliyi aradan qaldırılıb.

Naxçıvan şəhərindəki 16 nömrəli tam orta məktəbdə apardığımız müşahidələr də maraqlı oldu. Beşyaşlı uşaqlardan Murad Oruclu, Nail Süleymanlı, Nərmin Xudiyeva, Sevda Mustafayeva, Aysu İbrahimli məşğələlərdə fəallıq nümayiş etdirir, kənardan onları izləyən valideynlərini sevindirirdilər. 15 uşağın olduğu məktəbəhazırlıq qrupunun rəhbəri Gülbəniz Məmmədova isə söhbət zamanı dedi ki, məktəb təliminə hazırlıqsız olan uşaqlar I sinifdə həmyaşıdlarından geri qalırlar. Bu, onların öz imkanlarını aşağı qiymətləndirməsinə, dərslərində davamlı müvəffəqiyyətsizliklərə və məktəbə uyğunlaşmamasına səbəb olur. Məktəbə tam hazır gələn uşaqlar isə yeni şəraitə daha rahat və qısa müddət ərzində alışır, proqram materialını çətinlik çəkmədən qavrayır, müəllimin mövqeyini düzgün qəbul edir, iradəli, məsuliyyətli böyüyürlər. Ona görə də müasir şəraitdə beşyaşlıların məktəbə hazırlanması ən vacib vəzifələrdən biridir. Bunları nəzərə alaraq bir tərbiyəçi-pedaqoq kimi uşaqların məktəbə daha yaxşı hazır olmaları və uyğunlaşmaları üçün onlarda idrak proseslərinin inkişafına, fiziki, sosial, şəxsi, emosional-iradi, yaradıcı, əqli və nitq inkişafına diqqət yetiririk.

*Müasir cəmiyyətin inkişafı məktəbəqədər sahənin, xüsusilə məktəbəhazırlıq qruplarının qarşısına mühüm tələblər qoyub. Bu tələblərə cavab vermək üçün muxtar respublikamızda, ilk növbədə, uşaqların hərtərəfli inkişafına, valideynlərin maarifləndirilməsinə, tərbiyəçi və digər pedaqoji kadrların təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir.*

**Səbuhi HÜSEYNOV**

***Tarixçi alimlərə görə, Naxçıvanda şəhər mədəniyyətinin yaşı 5000 ildən artıqdır. Aparılmış tədqiqatlar, arxeoloji qazıntılar, mənbələrin verdiyi məlumatlar, aşkarlanmış maddi-mədəniyyət nümunələri bunu deməyə imkan verir. Budəfəki yazımızda biz şəhər mədəniyyətindən danışacağıq. Lakin bu heç də tarixi əsərlərdə qəbul edilən şəhər mədəniyyəti anlayışı deyil. Sözün müasir anlamında, bir şəhərin fərqləndirici xüsusiyyətinə çevrilən şəhər mədəniyyətindən söhbət açacağıq.***

## Bir şəhər ol, məsələn, Naxçıvan kimi...



Naxçıvan bu gün təkcə Azərbaycanda deyil, ümumilikdə, Cənubi Qafqazda turistlər və gələn qonaqlar üçün ən cəlbedici məkanlardan birinə çevrilib. Naxçıvanda son 20 il ərzində təkcə infrastruktur quruculuğu tədbirləri aparılmayıb, həm də turistlərə və gələn qonaqlara qarşı ideal münasibət formalaşdırılıb. Naxçıvanda müxtəlif zamanlarda görüşdüyümüz xarici qonaqlar, media təmsilçiləri, diplomatlar, xarici ölkələri, o cümlədən ölkənin digər regionlarını təmsil edən alimlər, ziyalılar, mədəniyyət xadimləri ilə söhbətlərdə eşitdiklərimizi ümumiləşdirərək müasir Naxçıvanın şəhər mədəniyyətini fərqləndirən altı xüsusiyyəti müəyyənləşdirmək mümkündür.

### *İctimai nəqliyyat mədəniyyəti*

Əgər siz Naxçıvana gəlmisinizsə, burada təkcə şəhərdaxili avtobusların yüksək komfortu yox, ictimai nəqliyyatda xidmət edən sürücülərin etik normalar çərçivəsində davranışı, avtobusları yalnız müəyyən edilmiş dayanacaqlarda saxlaması, intellektual idarəetmə sistemi olmadan belə nəqliyyat vasitələrinin müəyyən edilmiş vaxta uyğun hərəkət etməsi, eləcə də avtobusların həddindən artıq yüklənməməsi diqqətinizi cəlb edən əsas xüsusiyyətlərdən biri olacaqdır.

### *Taksi xidmətləri*

Çox vaxt biz adət etmişik ki, hansısa şəhərə, lap elə paytaxt Bakının özünə gedəndə hava limanında, avtovağzalda yükümüzü bizdən qabaq qamarlayan "köməkçilər"imiz peyda olur. Heç bir xüsusi göstərici ilə fərqlənməyən bu "köməkçilər" bizi öz köhnə, lakin bəzən bütün qaydaları pozaraq sürətlə gedə bilən avtomobillərinə mindirmək üçün "dəridən, qabıqdan çıxırlar". Amma maşına mindikdən sonra müştəri ilə az qala bankir ədası ilə danışmağa başlayırlar. Naxçıvanda isə nə hava limanında, nə avtovağzallarda heç kəs sizə məxsus olan yükü qamarlamır. Sizə xidmət göstərəcək taksi sürücülərini siz dayanacaqda dayanmış sarı rəngli maşınlarından, əyinlərindəki uniformalarından tanıya bilərsiniz. Onlar yaxınlaşdıqda sizinlə salamlaşır, hansı istiqamətə gedəcəyinizi soruşur, qiymət haqqında məlumat verirlər. Yolboyu sürücü yalnız sizin verəcəyiniz sualı cavablandırır. Həmçinin sizin icazənizin olub-olmamasından asılı olmayaraq tütün məhsullarından istifadə etmir.

### *Komfortlu yollar*

Naxçıvan həm də ideal və komfortlu yolları ilə seçilir. Sürət həddinin çox zaman 90-ı aşmağa icazə verilmədiyi şəhər və kəndlər arasındakı yolların ideal vəziyyəti, yol kənarlarındakı xüsusi su arxları, suötürücüləri və yaşıllıqlar Naxçıvanla tanışlığa başlayan qonaqların ən çox diqqətini çəkən digər məqamdır. Yolların genişliyi, piyada keçidlərinin intensivliyi, yol hərəkətini tənzimləyən işıqforların tələblərinə təkcə sürücülərin deyil, piyadaların da əməl etməsi Naxçıvanı digər yerlərdən əsaslı dərəcədə fərqləndirir.

### *Havada yalnız quşlar və təyyarələr uçur*

Yaxud başqa dildə desək, Naxçıvan səmasında küləkli vaxtlarda polietilen paketlərin, müxtəlif tullantıların uçuşması ehtimalı sıfırın altındadır. Çünki küçəboyu bu cür tullantılarla "bəzənmiş" təbiət mənzərələri gözə dəymir. Bu təkcə şəhərdə təmizliyin qorunması və yaşıllaşdırma işlərinin mütəmadi aparılması ilə bağlı deyil. Bunun əsas üç səbəbi var. Birinci səbəb ondan ibarətdir ki, burada təmizlik kimi məsuliyyətli və fiziki sağlamlıq tələb edən işlər yaşlı, ahıl nənələrimizə yox, fiziki durumu yerində olanlara tapşırılıb. Başqa sözlə desək, yaşının ahıl çağında nəvələri ilə oynamalı olan nənələrin səhərin sübhündə və gecənin qaranlığında təmizlik işi ilə məşğul olduğu ürəkağrıdan mənzərələr burda, ümumiyyətlə, yoxdur. Digər tərəfdən insanlarda illər boyu iməciliklər vasitəsilə formalaşdırılmış təmizlik və yaşıllıq məsuliyyəti onların bu məsələyə laqeyd yanaşmasına imkan vermir. Üçüncü səbəb isə burada tullantı qutularının öz yerində olmasıdır. Onları əvəzləmək üçün divarlara yazılmış müxtəlif "şüar"lardan istifadə edilmir.

### *"Hamının dilinə hörmətimiz var, bircə öz dilimiz yarayır bizə..."*

Görkəmli şairimiz Bəxtiyar Vahabzadənin reklamlarla bağlı belə bir bəndi var:

*Əvvəl rusca idi bütün reklamlar,*
*İndi ingiliscə görünür gözə.*
*Hamının dilinə hörmətimiz var,*
*Bircə öz dilimiz yaramır bizə.*

Naxçıvanda bunun əksidir. "Hamının dilinə hörmətimiz var, bircə öz dilimiz yarayır bizə...", başqa sözlə desək, Naxçıvanda dükanların, ictimai iaşə obyektlərinin adları yalnız Azərbaycan dilində ifadə olunur. "Sara xatun", "Ziyalı", "Nəqşi-cahan", Kitab evi və sair kimi... Xatırladaq ki, bu adların əvəzinə "Rihanna", "New Orlean", "Book club" və sair də ola bilərdi. Amma bura Naxçıvandır və hətta "aptek" sözünü belə, bizə daha yaxın olan əczaxana əvəzləyir. Bu isə bura gələn qonaqların da diqqətindən yayınmır.

### *Keçmişinə qürur duyulacaq qədər sayğılı münasibət...*

Əvvəllər xarici ölkələrə gedəndə hamımız onların öz ölkələrini və tarixlərini necə sevmələrinə qibtə edərdik. İndi keçmişinə sayğılı münasibəti görmək üçün xaricə getmək yox, elə Naxçıvana gəlmək lazımdır. Burada tarixə, tarixi abidələrə formalaşdırılan ideal münasibət sizi təkcə qibtə etməyə yox, həm də nümunə götürməyə vadar edəcək. Bu münasibətin formalaşması isə özü bir yazının mövzusu olduğu üçün fikrimizi gələn yazımızda davam etdirəcəyik...

**Elnur KƏLBİZADƏ**

*1 dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günüdür*

## Muxtar respublikada sağlam həyat tərzi təmin edilir

***Hər il dekabr ayının 1-i Ümumdünya QİÇS-lə Mübarizə Günü kimi qeyd edilir. QİÇS-lə Mübarizə Gününün məqsədi dünya ictimaiyyətinin diqqətini bu problemin həllinə cəlb etməkdən, insanları maarifləndirməkdən ibarətdir.***

Qazanılmış İmmun Çatışmazlığı Sindromu dünya səhiyyəsinin ciddi mübarizə apardığı infeksion xəstəliklər sırasındadır. Epidemiya kimi ilk dəfə harada aşkarlanması məlum olmayan QİÇS heç bir sərhəd tanımır. Bəlkə, elə bu xüsusiyyətinə görə o, əsrin bəlalarından biri hesab olunur. Qloballaşan dünyada getdikcə güclənən miqrasiya prosesləri də epidemiyanın sürətlə yayılmasına rəvac verir.

QİÇS-in yaranmasına və yayılmasına daha çox narkomaniya, qeyri-sağlam həyat tərzi, antisanitariya, natəmizlik səbəb olur. Bundan başqa, yoxlanmamış donor qanın köçürülməsi zamanı birdəfəlik şprislərin təkrar istifadəsi, steril olmayan tibbi alətlər, döymə, qulaq və bədənin digər üzvlərinin deşilməsi, manikür, gigiyenik tələblərə cavab verməyən əşyalardan istifadə və başqa amillər də yoluxmaya gətirib çıxara bilər. Xəstə anadan uşaqlara keçən infeksiya da yoluxmada əsas səbəblərdən hesab olunur. Uzun müddət davam edən qızdırma, limfa düyünlərinin şişməsi, ümumi zəiflik, çəkinin şiddətlə azalması, aylarla davam edən öskürək, qaraciyər və dalağın böyüməsi və sair bu kimi hallar xəstəliyin ilk əlamətləridir.

Qeyd edək ki, 1996-cı il aprelin 16-da ölkəmizdə "İnsan immun çatışmazlığı virusunun törətdiyi xəstəliyin (QİÇS) yayılmasının qarşısının alınması haqqında" Qanun qəbul olunub. 2010-cu ildə isə qanun layihəsi yenidən işlənərək "İnsan immun çatışmazlığı virusunun törətdiyi xəstəlik haqqında" Qanun qəbul edilib və bu sahədə qanunvericilik bazası daha da təkmilləşdirilib.

Naxçıvan Muxtar Respublikasında insanların QİÇS-ə yoluxma səviyyəsi aşağı həddədir. Lakin əksər ölkələrdə bu xəstəliyin sürətlə çoxalması muxtar respublikada da QİÇS-lə mübarizəni aktuallaşdırır. Ona görə də bu problem daim nəzarətdə saxlanılır. QİÇS-in profilaktikasına dair epidemioloji nəzarət və təbliğat gücləndirilir, xəstəliyin vaxtında aşkar edilməsi məqsədilə bütün donorlar, ümumiyyətlə, risk qrupuna aid olan bütün şəxslər laborator müayinələrə cəlb edilir. Bu xəstəliklə yaşayan şəxslərə profilaktika, müalicə, qulluq və dəstəyin göstərilməsi işinin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə mübarizə şöbəsi fəaliyyət göstərir. Mərkəzin yeni binasında QİÇS-lə mübarizə şöbəsi üçün də müasir iş şəraiti yaradılmış, ən müasir laboratoriya avadanlıqları quraşdırılmışdır.

Muxtar respublikada nikaha daxil olmaq istəyən şəxslərin hepatit B, hepatit C, o cümlədən QİÇS üzrə tibbi müayinəsi diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə mübarizə şöbəsi tərəfindən bu ilin ötən dövründə 4 min 661 nəfər müayinə olunmuş, bu zaman QİÇS-ə yoluxma halları qeydə alınmamışdır. Həmçinin bu dövrdə QİÇS-lə mübarizə şöbəsinin həkimləri tərəfindən nikaha daxil olmaq istəyənlərə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhətlər verilmişdir. Bu tədbirlərin həyata keçirilməsində məqsəd, yəni nikaha daxil olmaq istəyən şəxslərdə xəstəliklərdən hər hansı biri aşkar edilərsə, həmin xəstəliyin ailə qurduqdan sonra yarada biləcəyi fəsadların aradan qaldırılması, uşaqların, habelə ailənin digər üzvlərinin riskli hallardan qorunmasını təmin etməkdən ibarətdir.

Maarifləndirici tədbirlərin həyata keçirilməsi xəstəliyin yayılması və qarşısının alınmasında mühüm əhəmiyyətə malikdir. Buna görə də muxtar respublikada profilaktik tədbirlərə yanaşı, səhiyyə maarifi də diqqət mərkəzində saxlanılır. Bu məqsədlə yeniyetmə və gənclər arasında söhbətlər aparılır, müxtəlif seminarlar keçirilir. Həyata keçirilən profilaktik tədbirlər zamanı xəstəliyin yayılma yolları, diaqnostikası, müalicəsi, qorunma tədbirləri haqqında vətəndaşlara ətraflı məlumat verilir.

Naxçıvanda təmizliyə, sanitar-gigiyenik qaydalara ciddi əməl olunur, şəhər, qəsəbə və kəndlərdə abadlıq-quruculuq işləri aparılır, müasir avadanlıqlarla və dərman preparatları ilə təmin olunmuş yeni tibb müəssisələri istifadəyə verilir, səliqə-sahman yaradılır. Bütün bunlar da bir çox yoluxucu xəstəliklərin, xüsusilə də QİÇS-in qarşısının alınmasında vacib məsələdir.

Muxtar respublikada son illər müasir təhsil və idman infrastrukturu yaradılmış, gənclərin asudə vaxtının səmərəli təşkili təmin edilmiş, ən ucqar dağ kəndlərində belə, zəngin fonda malik kitabxanalar istifadəyə verilmişdir. Bu da ölkəmizin gələcəyi olan gənclərin savadlı, dünyagörüşlü və sağlam böyüməsinə imkan verir. Artıq muxtar respublikada zərərli vərdişlərdən uzaq, bilikli və sağlam həyat tərzi keçirən vətənpərvər gənc nəsil yetişir. Muxtar respublika gəncləri yüksək təhsil alır, beynəlxalq idman yarışlarında ölkəmizi layiqincə təmsil edirlər.

Unutmayaq ki, hər bir insanın sağlamlığı, ilk növbədə, onun özündən asılıdır. Normal həyat tərzi sürmək üçün hər kəs daim öz sağlamlığının qayğısına qalmalı, zərərli vərdişlərdən uzaq olmalı, gigiyena və sanitariya qaydalarına əməl etməli, xüsusilə də QİÇS-ə qarşı mübarizədə aktivlik göstərməlidir.

## Növbəti təkmilləşdirmə kursu başa çatıb

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin göndərişi əsasında cari ilin son rübündə Tibb bacısı, Tibbi qeydiyyatçı, Laboratoriya işi, Feldşer, Mama ixtisasları üzrə 150 nəfər orta tibb işçisinin təkmilləşdirmə kursu keçməsi nəzərdə tutulub. Naxçıvan Tibb Kollecində bu il oktyabrın 24-dən başlanan peyvənd və sterilizasiya kursu artıq başa çatıb. Təkmilləşdirmə kursunda Naxçıvan şəhəri ilə yanaşı, rayonların tibb müəssisələrində çalışan 90 tibb bacısı iştirak edib.

Naxçıvan Tibb Kollecində təkmilləşdirmə kursu üzrə dərslər ixtisaslı həkim və müəllimlərin rəhbərliyi altında elektron lövhədə aparılıb. Təcrübələr Naxçıvan Muxtar Respublika Xəstəxanasında, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Uşaq Xəstəxanasında, Doğum Mərkəzində, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində keçirilib. Kursda iştirak edənlərə ixtisasları üzrə tibbin yenilikləri haqqında mühazirələr oxunub, tibbi prosedurlar, profilaktik peyvəndlərin aparılması, müasir aparat və avadanlıqlar nümayiş etdirilib. Tibb bacılarına buklet və kitabçalar paylanıb. Kursda iştirak edənlər üçün attestasiya imtahanı keçirilib və sertifikatlar təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin göndərişi əsasında 2010-cu ildən 2016-cı ilin birinci yarısınadək, ümumilikdə, 709 nəfər orta tibb işçisi təkmilləşdirmə kursunda iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsinin növbəti ixtisasartırma kursuna başlanılıb

***“Naxçıvanqaz” İstehsalat Birliyinin təşkilatçılığı ilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsinin növbəti ixtisasartırma kursuna başlanılıb.***

Qeyd edək ki, ixtisasartırma kursları Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Ali Məclis Sədrinin “Naxçıvanqaz” İstehsalat Birliyinə “Qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına cəlb olunmalarının davam etdirilməsi” barədə verdiyi tapşırığa əsasən təşkil edilir.

“Naxçıvanqaz” İstehsalat Birliyinin rayon, şəhər Qaz İstismarı idarələrinin müvafiq işçilərinin cəlb edildiyi kursda qaz avadanlıqlarının istismarı, texniki rəsmxət, elektrotexnika fənləri tədris olunur, emalatxanada məşğələ və istehsalat təlimləri aparılır. Cari ilin sentyabr ayında başlanan kurslar yekunlaşdırılıb, noyabr ayında yeni kursa başlanılıb. Bir kursun müddəti iki aydır. İxtisasartırma kursları birliyin aparıcı mütəxəssisi tərəfindən tədris olunur və bundan sonra da davam etdiriləcək.

Qeyd edək ki, ixtisasartırma kurslarının təşkili qaz təsərrüfatında texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə riayət etməklə təbii qazın səmərəliliyinə, peşəkar ixtisaslı işçi qüvvəsinin artırılmasına, istehlakçılara nümunəvi xidmətin göstərilməsinə, həmçinin görülən işlərin keyfiyyətinin yüksəldilməsinə zəmin yaradır.

Sonda ixtisasartırma kurslarını uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim olunur.

***“Naxçıvanqaz” İstehsalat Birliyinin mətbuat xidməti***

***Türkiyənin müxtəlif muzey və kitabxanalarında XIII əsrdə yaşamış görkəmli Azərbaycan alimi Hinduşah ibn Səncər Naxçıvaninin “Əs-Sihahül Əcəmiyyə” adlı farsca-türkcə lüğətinin əlyazma nüsxələri qorunub saxlanılır.***

## XV əsrə aid əlyazmalar tədqiqata cəlb olunub



Bu günlərdə AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev Türkiyənin İstanbul şəhərinin Süleymaniyə Kitabxanasından və Topqapı Sarayı Muzeyindən Hinduşah ibn Səncər Naxçıvani tərəfindən XIII əsrin sonlarında fars və türk dillərində qələmə alınan “Əs-Sihahül Əcəmiyyə” adlı əlyazmanın XV əsrə aid iki nüsxəsinin fotosurətlərini əldə edərək bölməyə gətirib.

Tədqiqata cəlb olunan əlyazmanın bir nüsxəsi 108 səhifədən, o biri nüsxəsi isə 77 səhifədən ibarətdir. Qeyd edək ki, əsər təkcə lüğət olmamış, eyni zamanda Qafqaz, Anadolu, Balkanlar və Yaxın Şərq mədrəsələrində dərs vəsaiti kimi də istifadə edilib. Buna görə də dünyanın müxtəlif kitabxana və muzeylərində sözügedən əsərin bu günə kimi 100-ə qədər nüsxəsi mühafizə olunmaqdadır.

Məlumat üçün onu da qeyd edək ki, həmin əlyazmaların fotosurətləri AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun materialları sırasına daxil edilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin konserti maraqla qarşılanıb

***Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində olan uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbdənkənar müəssisələrin dərnək üzvləri üçün konserti olub.***

Ərtoğrol Cavid adına Naxçıvan Şəhər Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbində keçirilən konsert başlanmazdan əvvəl Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Leyla Əlimərdanova çıxış edərək bildirib ki, konsert təhsil, mədəniyyət və turizm müəssisələrinin qarşılıqlı fəaliyyətinin səmərəli təşkili ilə bağlı 2016-2017-ci tədris ili üçün hazırlanmış tədbirlər planına əsasən keçirilir. Konsertin təşkilində məqsəd ümumtəhsil məktəblərində Azərbaycan və dünya musiqisini təbliğ etmək, məktəblərin istedadlı şagirdlərini uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə cəlb etmək, şagirdlərdə musiqi zövqünü formalaşdırmaqdır.

Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov çıxışında muxtar respublikamızda fəaliyyət göstərən uşaq musiqi məktəbləri haqqında məlumat verərək qeyd edib ki, musiqimizin inkişafı istiqamətində görülən tədbirlər davamlı xarakter alıb. Son illər 23 uşaq musiqi məktəbi üçün bina inşa olunaraq və ya yenidən qurularaq istifadəyə verilib. Bu gün muxtar respublikada 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi fəaliyyət göstərir. Həmin məktəblərdə musiqi təhsilinin nümunəvi təşkili üçün hərtərəfli şərait yaradılıb.

Tədbirin bədii hissəsində Naxçıvan şəhərində fəaliyyət göstərən uşaq musiqi məktəbləri şagirdlərinin ifasında musiqi nömrələri səsləndirilib. Şagirdlər görkəmli Azərbaycan bəstəkarları Qara Qarayev, Fikrət Əmirov, Süleyman Ələsgərov, Qəmbər Hüseynli, Tofiq Bakıxanov, Vasif Adıgözəlovun əsərlərini ifa ediblər.

Konsertdə xarici ölkə bəstəkarlarının skripka, fortepiano üçün yazdığı musiqi əsərləri də səsləndirilib. Naxçıvan Şəhər 2 nömrəli Uşaq Musiqi Məktəbinin nağaraçalanlar ansamblının “Azərbaycan ritmləri” kompozisiyası ilə başa çatan konsert maraqla qarşılanıb.

**Əli RZAYEV**

## Aztəminatlı ailəyə baş çəkilib

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində yaşayan aztəminatlı çoxuşaqlı Mehdiyevlər ailəsinə baş çəkilib.

Ailə ilə görüş zamanı Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sahir Rüstəmov, Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktoru Malik Tarverdiyev bildiriblər ki, muxtar respublikada əhalinin məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Aztəminatlı ailələrin və bu qəbildən olan digər şəxslərin müavinət təminatının yaxşılaşdırılması onların həyat səviyyəsinin yüksəldilməsinə xidmət edir. Muxtar respublikada aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardımı mexanizminin uğurla həyata keçirilməsi, təkcə 2016-cı ilin yanvar-sentyabr ayları ərzində muxtar respublikada hər bir nəfərə düşən aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə 2 milyon manatdan artıq həcmdə ünvanlı dövlət sosial yardımının ödənilməsi sosial siyasətin praktik nəticələri kimi diqqəti çəkir. Bir sözlə, sosial sahəyə qayğının ildən-ilə artırılması ailələrimizin rifah halının yüksəlməsi ilə nəticələnir.

Sonra aztəminatlı çoxuşaqlı ailənin yaşayış şəraiti ilə maraqlanılıb, ailə üzvlərinə səyyari tibbi xidmət göstərilib, onlara ərzaq payı verilib.

Ailə üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

### İtmişdir

Qəhrəmanova Elza Cavanşir qızının adına Çalxanqala Kənd Uşaq Musiqi Məktəbi tərəfindən verilmiş A-55 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

* * *

“Şəms-2015” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 0200777961 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 914